Azərbaycan Milli Kitabxanası
Az1000, Baku, Azerbaijan
Khagani str. 29
Tel.: (+994 12) 493 40 03
Fax: (+994 12) 498 08 22
contact@anl.az

NATIONAL LIBRARY OF UZBEKISTAN
1, Navoi, Tashkent,
Uzbekistan,100017
Tel.:(+99871) 2394440
Fax: (+99871) 2391658

# M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanası arasında Əməkdaşlıq Memorandumu

Bundan sonra "Tərəflər" adlandırılacaq M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası və Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanası kitabxanalar arasında ikitərəfli əlaqələri inkişaf etdirmək həmçinin təhsil, elm və mədəniyyətdə kitabxana informasiya sahəsinin inkişaf etdirilməsində əməkdaşlığın vacibliyini nəzərə alaraq, informasiyanın yayımı və mübadiləsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər, ölkələrinin milli qanunvericiliyinə, beynəlxalq müqavilələrə və bu Memorandumun müddəalarına uyğun olaraq elm və mədəniyyət, kitabxana-informasiya işi sahələrində əməkdaşlığı inkişaf etdirəcəklər.

## Maddə 2

Tərəflər əlaqələri genişləndirmək və daha da inkişaf etdirmək üçün, tədqiqat materiallarını rəqəmsallaşdırmağa və kitabxana fondlarındakı boşluqları aradan qaldırmağa kömək edəcək layihələrə dəstək olmaq üçün birlikdə çalışmalıdırlar.

Tərəflər kitabxana və biblioqrafik proseslərin avtomatlaşdırılması, elektron sənəd mübadiləsi və çatdırılması, elmi biblioqrafiya, nadir kitabların bərpası və saxlanılması, eləcə də kadr hazırlığı sahəsində əməkdaşlıq edəcəklər.

## Maddə 3

Qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərinə əsaslanaraq munasibətlərin gələcək inkişafı məqsədilə tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edəcəklər:

- Tərəflərin fondlarında nadir nüsxələrin və qədim kitabların saxlanması və kataloqlarının yaradılması haqqında informasiya mubadiləsi;

Az1000, Baku, Azerbaijan
Khagani str. 29
Tel.: (+994 12) 493 40 03
Fax: (+994 12) 498 08 22
contact@anl.az

NATIONAL LIBRARY OF UZBEKISTAN
1, Navoi, Tashkent,
Uzbekistan,100017
Tel.:(+99871) 2394440
Fax: (+99871) 2391658

- Sənəd və əlyazmaların elektron çatdırılması;
- Tərəflərin əsas fəaliyyətləri ilə əlaqəli sahələrdə (bərpa, saxlama, konservasiya, avtomatlaşdırılma) peşəkar təcrübənin və elmi nailiyyətlərin, habelə tərəflərin mütəxəssisləri tərəfindən hazırlanmış metodiki və biblioqrafik vəsaitlərin mübadiləsi;
- Tərəflərin ölkələrində nəşr olunan kitabxanalar sahəsində sosial və mədəni dövri nəşrlərin (qəzetlər, jurnallar) elektron mübadiləsinin qurulması;
- Özbəkistan və Azərbaycan Respublikası arasında ölkəşünaslıq üzrə biblioqrafik bazalarının mübadiləsi;
- Tərəflərin maraqlarına uyğun mütəxəssislərə təcrübələrin təşkili;
- Kitabxana fondundan virtual sərgilərin təşkili;
- Tərəflər arasında kitabxana-informasiya fəaliyyətində yeni texnologiyaların və qabaqcıl təcrübələrin təqdimatında və əldə olunan təcrübələrin mübadilesi məqsədilə birgə konfransların, seminarların keçirilməsi;
- Birgə tədqiqatların keçirilməsi, nəşrlər və digər təşəbbüslər.

Tərəflərin qarşılıqlı razılığı ilə digər sahələrdə də əməkdaşlıq həyata keçiriləcəkdir.

**Maddə 4**

Mütəxəssislərin ixtisasaslarının artırılması aşağıdakı kimi həyata keçiriləcəkdir:

- Tərəflər digər tərəfdə təcrübədə iştirak edəcək mütəxəssisləri müstəqil olaraq təyin edəcəklər;
- Tərəflər ixtisasartırmaya eyni sayda mütəxəssis göndərəcəklər;
- İxtisasartırmanın vaxtı və proqramı tərəflər ilə əvvəlcədən razılaşdırılacaqdır;

Az1000, Baku, Azerbaijan
Khagani str. 29
Tel.: (+994 12) 493 40 03
Fax: (+994 12) 498 08 22
contact@anl.az

NATIONAL LIBRARY OF UZBEKISTAN
1, Navoi, Tashkent,
Uzbekistan,100017
Tel.:(+99871) 2394440
Fax: (+99871) 2391658

**Maddə 5**

Bu Memorandum beynəlxalq müqavilə deyildir və tərəflərə heç bir hüquqi və maliyyə öhdəliyi qoymur;

**Maddə 6**

Tərəflərin qarşılıqlı razılığına əsasən, bu memoranduma ayrı-ayrı protokollar vasitəsilə əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və beş il müddətində qüvvədə sayılır və bir tərəf növbəti müddətin bitməsindən üç ay əvvəl xitam vermə niyyəti barədə digər tərəfə yazılı şəkildə bildirməzsə, onun qüvvədə olma müddəti növbəti beş il üçün uzadılır.

Bu Memorandum Bakı şəhərində azərbaycan, özbək və rus dillərində iki nüsxədə tərtib edilmişdir və 9 oktyabr 2021-ci il tarixində imzalanmışdır. Bu memorandumun təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə rus dilindəki mətn üstünlük təşkil edəcəkdir.

| | |
|---|---|
| **M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası** | **Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanası** |
| **Direktor** | **Direktor** |
| **/Kərim Tahirov /** | **/U.Teşabayeva /** |